**Akkreditasiya olunmuş**
**Sınaq və kalibrləmə laboratoriyalarının,**

**AzAK-ın qiymətləndirici/texniki**
**ekspertlərinin diqqətinə**

Bildiririk ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyindəki "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxsin (bundan sonra AzAK) Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatına (bundan sonra ILAC) tam həqiqi üzv kimi qəbul olunması nəzərdə tutulmuşdur.

AzAK-ın ILAC-a tam hüquqlu üzv olması və ILAC-la Qarşılıqlı Tanınma Sazişini imzalaması üçün akkreditasiya prosesinin ISO/IEC 17011 - "Uyğunluğun qiymətləndirilməsi qurumlarını akkreditasiya edən orqanlara tələblər" standartının tələblərinə uyğun yerinə yetirilməsi, sınaq laboratoriyalarının fəaliyyətlərinin isə ISO/IEC 17025 standartının, eləcə də ILAC-ın tələblərinə uyğun təşkil edilməsi tələb edilir.

Təəssüf hissi ilə bildirmək istəyirik ki, Azərbaycanda fəaliyyət gösətərən sınaq laboratoriyalarının ilkin akkreditasiyası, illik qiymətləndirilmələri və təkrar akkreditasiyası zamanı bir çox laboratoriyaların ISO/IEC 17025 standartının, eləcə də ILAC-ın tələblərinə əməl etmədikləri tərəfimizdən müəyyən edilmişdir.

Qeyd edilənləri nəzərə alaraq sınaq laboratoriyalarının fəaliyyətinin yaxşılaşdırılması üçün laboratoriyaların aparıcı işçi heyəti, eləcə də akkreditasiya üzrə qiymətləndirici/texniki ekspertlərin bilik və bacarıqlarının artırılması üçün AzAK tərəfindən aşağıdakı mövzuları özündə ehtiva edən təlim təşkil edilmişdir:

1. ISO/IEC 17025 standartının laboratoriyaların fəaliyyəti ilə əlaqədar əsas bəndləri;
2. Qərar qəbul etmə qaydaları və uyğunluğun bəyan olunması ILAC Guide/təlimatı G8;
3. Proseslərə yanaşma Riskə əsaslanan düşüncə;
4. ISO 31000 standartında risk anlayışı: Gözləniləndən müsbət və/yaxud mənfi kənarlaşma/ sapma: Fürsət və təhlükə;
5. Uyğunsuzluqlar, onların miqyası anlayışı və kök səbəblərin təhlili üsulları, düzəldici fəaliyyətlərin icrası;

6. AzAK P005- Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası proseduru;
7. Sınaq və kalibrləmə laboratoriyalarının AzAK-ın yeni prosedur, qayda və təlimatlarına uyğunlaşdırılması ilə əlaqədar Keçid Siyasətinin tələblərinin izah edilməsi, laboratoriyaların fəaliyyətində yaranmış problemələrinin müzakirəsi, suallar və cavablar.

**Təlimin təşkili barədə məlumatlar:**

1. Tarix: 19-21 fevral 2024-cü il, təlimin müddəti: 3 gün, təlimin keçirilmə vaxtı: 09:30 – 17:00;
2. Keçirilmə yeri: İBİS BAKU CİTY oteli, Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti 64 (Xətai metrosunun yanı);
3. Təlimdə iştirak haqqı: 1 nəfər üçün 350 AZN;
4. Təlimdə iştirak etmək istəyən şəxslər AzAK-ın qiymətləndirici/texniki ekspert bazasında qeydiyyatdan keçməli və bu barədə AzAK-a məlumat verməlidir;
5. Təlimçilər: TÜRKAK-ın təcrübəli baş qiymətləndiricisi – Hediye Özmen Ekmekçi;
6. Təlim haqqının ödənilməsi qaydası: Qabaqcadan ödəniş;
7. Təlimdə iştirakın təsdiqinin son tarixi və son ödəniş tarixi: 15 fevral 2024-cü il.

**Təlim üzrə əlaqələndirici şəxslər:**

**Təşkilati məsələlər üzrə:**

Hacıyeva Cəmilə: 051 811 91 19
Hüseynova Dinara: 055 300 32 81

**Ödəniş və müqavilə məsələləri üzrə:**

Allahverdiyev Nicat: 055 214 73 37